**Vəliyeva A.Q., Əliyev B.Ə**[*]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2018.55.61-88**

# Terrorçuluğa qarşı mübarizədə insan haqlarının müdafiəsi: yaşamaq hüququ

**Xülasə:** Müasir dövrdə "terrorçuluq" günümüzün ən aktual mövzularından birinə çevrilmişdir. Terrorçuluq bəşəriyyəti məhv edən sosial-siyasi bəladır. Dövlət məmurundan tutmuş sıravi vətəndaşa qədər hamı dərk edir ki, onların özləri də istənilən an terrorçuların hədəfinə çevrilə bilərlər. Təkcə son illərdə bütün dünyada baş verən terror hadisələrini bir anlıq göz önündə canlandırsaq görərik ki, terror qurbanlarının əksəriyyəti günahsız insanlardır. Gündən-günə artan terror hadisələrinin baş verməsi nəticəsində günahsız insanlar yaşamaq hüququndan məhrum edilir.

**Açar sözlər:** terrorçuluq; insan haqlarının müdafiəsi; yaşamaq hüququ; həyatın mühafizəsi.

XXI əsrin əvvəllərində, dünya dövlətləri terror təzahürlərininartması ilə qarşı-qarşıya qaldı. Dövlətlər bu sosial hadisələrlə mübarizə baxımından tam hazır deyildilər. Bu da XXI əsrin ən təhlükəli və mürəkkəb hadisəsi kimi terrorçuluğun vahimə və qorxu miqyasını genişləndirir.

Qorxu və vahimə hissi kimi insanların yaddaşında iz salan bu amansız hərəkətlərmilli qanunvericilikdə "terrorçuluq" kimi göstərilmişdir. Terrorçuluq anlayışınaAzərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-cü maddəsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun 1-ci maddəsindərast gəlmək olar.

---

[*]**Vəliyeva Aynur Qəhrəman qızı** – AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət Təhlükəsizliyinin hüquqi təminatı"şöbəsinin elmi işçisi (Azərbaycan).E-mail:veliyevaa3@gmail.com
**Əliyev Bəxtiyar Əbdürəhman oğlu -** h.ü.f.d., dosent, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət Təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin müdiri (Azərbaycan). E-mail: antiterror-baku@mail.ru

Hər iki qanunda "terrorçuluq" sözünə verilən anlayışa baxdıqda görərik ki, məzmun baxımından eynilik təşkil edir. Beləliklə,Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-cü maddəsində göstərilən anlayışa nəzər yetirək. Bu anlayışa əsasən terrorçuluq-ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədi ilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə nəzərdə tutulur.

Terrorçuluq subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Təqsirkar şəxs öz əməlinin ictimai təhlükəli olduğunu dərk edir, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görür və bunları arzu edir. Burada ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul etməsinə təsir göstərmək məqsədi ilə törədilir. Bu da terrorçuluq cinayətinin subyektiv cəhətinin zəruri əlamətidir.

Bu cinayət əməlinin cinayət-hüquqi baxımdan təhlili onun təkcə milli deyil, həm də beynəlxalq xarakter daşıdığını göstərir. Törədilən əməl cinayət tərkibli əməl hesab olunduğundan və bununla bağlı mübarizə təkcə dövlət çərçivəsində deyil, həm də beynəlxalq mübarizə aparılmasına ehtiyac duyulur.Məhz buna görə də 1977-ci il yanvarın 27-də Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən "Terrorçuluqla mübarizə üzrə" Avropa Konvensiyası imzalanmışdır. Bu Konvensiyanı imzalayan dövlətlər terrorçuluğa qarşı mübarizə ilə bağlı üzərlərinə bir sıra mühüm öhdəliklər götürmüşlər.

Terrorçuluğa qarşı mübarizə məsələsinə respublikamızın milli qanunvericiliyində də xüsusi diqqət yetirilmişdir. Belə ki, "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 18 iyun 1999-cu il tarixli qanunu qəbul edilmişdir. Bu qanun Azərbaycan Respublikasında terrorçuluğa qarşı

mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edir, terrorçuluq əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə bu sahədə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edir.

Həmin qanunun 3-cü maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə aşağıdakı məqsədlərlə həyata keçirilir: 1) insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;

2) terrorçuluğun aşkar edilməsi, qarşısının alınması və terrorçuluq nəticəsində gözlənilən zərərin minimuma endirilməsi;

Terrorçuluq hərəkətləri zahirən müxtəlif formalarda ifadə olunsa da, diqqətlə təhlil etdikdə onların hamısının iki ümumi əlamətə malik olduğunu görmək olar. Terrorçuluq hərəkətlərinin dövlət hakimiyyətini və ictimai asayişi sarsıtmağa yönəlmiş olması birinci əlamət, bu hərəkətlərin terrorçular tərəfindən mütəşəkkil formada və qəddarcasına zorakılıq tətbiq etməsinin təsiri altında əhalidə vahimə və köməksizlik hissi yaratması isə ikinci əlamət kimi göstərilə bilər.

Terror aktlarının törədilməsi insanlara ziyan verməklə, onların həyat və sağlamlığına məqsədli şəkildə törədilən bu cür sosial hadisələrin qarşısını almağa yönələn mübarizə tədbirlərinin aparılması zamanı maddi və texniki təminatın olmaması, mövcud qanunvericilik bazasının qeyri-təkmil olması terrorçuluğun miqyasının genişlənməsinə təsir edir. Beləliklə, vahimə və qorxu ilə törədilən xüsusilə təhlükəli əməlin insanların yaşamaq hüququna son qoyulmasına, sağlamlığına ziyan vurmaqla xəsarət almasına, dövlət daxilində yaşayan milli və etnik qruplar arasında düşmənçiliyin yaranmasına səbəb olur.

Terrorçuluğu tam anlamaq üçün birinci növbədə onun xarici təzahürlərini deyil, kökünü öyrənmək lazımdır. Terrorçuluğun səbəbləri çox vaxt səhv qəbul olunur. Belə bir fikir geniş yayılmışdır ki, terrorçuluq ədalətsizliyə qarşı hərəkətdir, terrorçular isə dözülməz şəraitdən təngə gəlmiş insanlardır(kasıbçılıq, ümidsizlik, sosial və siyasi sıxıntı). Bu məntiqdən yanaşsaq, terrorçuluğun aradan qaldırılması

və ya heç olmazsa onun azaldılmasının yeganə yolu terrorçuluğu kobud güc yolu ilə boğmağa çalışmaq yox, onun mənbəyinin terrorçulara sakitlik verməyən yaranın kəsilib atılmasıdır [1].

Ümummilli lider Heydər Əliyev də öz çıxışında qeyd etmişdir ki, Azərbaycan Respublikası daim bütün dünya üçün təhlükə olan terrorçuluğu pisləyir və ona qarşı aparılan beynəlxalq əhəmiyyətli mübarizəni dəstəkləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 04 may 2012-ci il tarixli yüksək səviyyəli iclasda çıxış edərək bildirmişdir ki, "Terrorçuluq beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən bütün üzv dövlətlərdə insan hüquqlarının, fundamental azadlıqların, demokratiyanın, siyasi müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və nəhayət sosial və iqtisadi inkişafın bərqərar olmasına ciddi təhdiddir" [11].

Terrorrorçuluğun müxtəlif forma və növdə törədilməsi, miqyası, intensivliyi və amansızlığı qlobal əhəmiyyət kəsb etdiyindən onunla mübarizə dövrün tələbinə çevrilmişdir[2].

Terrorçuluğa qarşı mübarizə zamanı yaşamaq hüququnun itirilməsinə üç aspektdən yanaşırıq:

1. Terror aktı nəticəsində həyatını itirmiş insanlar "terror qurbanları";
2. Hüquq-mühafizə orqanlarına müqavimət göstərən, antiterror əməliyyatları çərçivəsində məhv edilən "terrorçular";
3. Antiterror əməliyyat iştirakçıları.

Terror aktını həyata keçirənlər üçün insan hüquqları elə bir əhəmiyyət kəsb etmir. Ona görə də insanın ən ali hüququ olan yaşamaq hüququnun əlindən alınmaması üçün bütün səylər birləşdirilməlidir.

1. Müasir dövrdə terrorçuluğun qurbanları hər gün daha da artmaqdadır. Terror aktı terrorçular tərəfindən öz məqsədlərinə çatmaq üçün insanların həlak olması, onların sağlamlığına zərər vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlərin

törədilməsi başa düşülür. Beləliklə, insanların həlak olması təhlükəsi dedikdə, heç olmazsa bir insanın həyatı üçün real təhlükənin mövcudluğu başa düşülməlidir. İnsanların sağlamlığına zərər vurulması təhlükəsi dedikdə isə heç olmazsa bir insanın sağlamlığına zərər yetirilməsi təhlükəsinin mövcudluğu başa düşülməlidir. Bu siyasəti həyata keçirmək üçün terroristlər qorxuducu hərəkətlər etməlidirlər. Bu cür hərəkətlərin törədilməsi teror aktı hesab olunur.

8 dekabr 1960-cı il Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 59-cu maddəsində terror aktına anlayış verilmişdir. Həmin anlayışa əsasən terror aktı: dövlət və ya ictimai xadimlərin həyatına qəsd, yaxud onlara digər formada zorakılıq şəklində siyasi məqsədlərlə edilir. Qeyd edilən bu anlayışla razılaşmaq olmaz. Çünki, müasir baxımdan da bu anlayışı düzgün təsnif hesab etmək yanlış olardı. Real həyatda terrorçuluqdan daha çox mülki, sivil şəxslər ziyan çəkir. Beləliklə, terror aktı zamanı "terror qurbanları" təkcə dövlət və ictimai xadimlər deyil, həm də mülki, sivil şəxslər hesab olunur [3].

2. Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunun 1-ci maddəsində terrorçu sözünə anlayış verilmişdir. Həmin anlayışa əsasən terrorçu hər hansı formada, birbaşa və ya dolayısı ilə, qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və ya icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən şəxs hesab olunur. Terrorçuluq cinayətinin subyekti bu cinayəti törədənədək 14 yaşı tamam olmuş istənilən anlaqlı fiziki şəxs ola bilər.

3. Terrorçuluğa qarşı mübarizə aparanlara antiterror əməliyyat iştirakçıları deyilir. Belə ki, terrorçularla mübarizəni həyata keçirən orqanlar barəsində Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunun 5-ci maddəsində göstərilmişdir. Antiterror əməliyyatında iştirak edən şəxslər əsasən hüquq mühafizə orqanlarıdır. Bunlara misal olaraq: polis və dövlət təhlükəsizliyi xidmətində öz səlahiyyətləri çərçivəsində vəzifə borcunu yerinə yetirən müstəntiqi, təhqiqatçını göstərmək olar.

Qeyd etmək istəyirik ki, 1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisi tərəfindən "Ümumdünya İnsan Hüquqları" Bəyannaməsi qəbul edilmişdir. Beləliklə, 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-u dünyada Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd olunur. Bəyannamədə deyilir: "Hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır, heç kəs insan ləyaqətini alçaldan alçaldıcı və qeyri-insani cəza və işgəncələrə məruz qala bilməz".

Yaşamaq hüququ insan hüquqlarının müdafiəsi üzrə istənilən sistemdə ən mühüm hüquqdur. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 2-ci maddəsində göstərilmişdir ki, hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz.

Yaşamaq hüququ insanın ayrılmaz hüququdur. Digər bütün hüquq və azadlıqlar məhz yaşamaq hüququndan sonra gəlir. Yaşamaq hüququ şəxsin öz fiziki və bioloji fərdi mövcudluğu üçün heç bir məhdudiyyət qoyulmadan fəaliyyət göstərməsini, insanın bir sosial varlıq kimi müxtəlif maddi və mənəvi nemətlərdən bəhrələnməsini ifadə edir. Hər hansı psixoloji çatışmazlığa malik olub-olmamasından habelə şəxsi mənəvi keyfiyyətlərdən asılı olmadan hər bir şəxs yaşamaq hüququna malikdir. Belə ki, hər hansı bir hüquqi faktdan asılı olmadan mövcud olduğuna görə onun bitməsi həmişə, bir qayda olaraq, ölüm faktı ilə baş verir.

1995-ci ildə ölkəmizdə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızda insan və vətəndaşların hüquq və azadlıqları təmin edilmişdir. Yaşamaq hüququ hər bir insanın ən ümdə təbii hüququdur. Fərd doğulduğu andan onun yaşamaq hüququ əmələ gəlir və ömrünün sonuna qədər bu hüquq ayrılmaz olaraq onunla qalır. Yaşamaq hüququ AR Konstitusiyanın 27-ci maddəsində öz əksini tapmışdır. Həmin maddədə qeyd olunmuşdur ki, hər kəsin yaşamaq hüququ

vardır. Belə ki, hər bir şəxsin yaşamaq hüququ toxunulmaz hesab olunur. Eyni zamanda həmin maddədə konkret olaraq hansı hallarda, hansı üsullarla və hansı orqanlar tərəfindən insanın həyatına son qoyulması məsələsi dəqiqləşdirilmişdir. Beləliklə, 27-ci maddənin 2-ci bəndində yalnız dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi istisna edilən hallar kimi göstərilmişdir. Qeyd etmək istəyirik ki, Konstitusiyada sadalanan hallar yaşamaq hüququndan məhrumetmə kimi başa düşünülə bilməz. Çünki dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi özünümüdafiə tədbiri kimi baxılır. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əsasında ölüm cəzasının tətbiqi isə bu zaman öldürmə əməlin ekvivalenti başa düşülür və burada məhkəmənin hökmü ilə verilən ölüm cəzası insanın yaşamaq hüququnu pozmadığı bildirilir. Həmin maddənin 3-cü bəndinə nəzər yetirdikdə isə müstəsna cəza tədbiri kimi ölüm cəzası tam ləğv edilənə qədər, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər [4].

Ölkəmizdə ölüm hökmü üzərində 1993-cü ildən moratorium qoyulmasını, 1998-ci ildə isə bu cəzanın tamamilə ləğv edilməsini, Ümümmilli lider Heydər Əliyev tərəfindən insan hüquqlarının qorunması sahəsində gördüyü işləri xüsusi qeyd etmək lazımdır.

Beynəlxalq statistik məlumatlara əsasən terror aktları zamanı ABŞ-da 11 sentyabr terroru- 2996 ölü , Somalidə 14 oktyabr 2017-ci il terroru – 512 ölü, İraqda 14 avqust 2007-ci il terroru – 458 ölü, Rusiyada 3 sentyabr 2004-cü il terroru - 335 ölü, Misirdə 24 noyabr 2017-ci il terroru – 305 ölüm faktı qeydə alınmışdır. Baş vermiş terror hadisələri zamanı dünyasını dəyişmiş insanlar- onların ən ümdə təbii hüququ olan yaşamaq hüququndan məhrum edilməsidir.

**Qeyd:** *Azərbaycanda baş vermiş terror hadisələrini sadalayaraq onu da qeyd edim ki, 17 iyun 1984-cü ildə Bakı şəhərində 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Vartanov tərəfindən partladılması zamanı üç nəfər yaralanmış,*

*bir qadın həlak olmuşdur. 30 aprel, 2009-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasında baş vermiş qanlı qətl hadisəsinin baş verməsi ilə 13 nəfər ölmüş, 10 nəfər isə yaralanmışdır.*

Terror hadisəsi zamanı baş vermiş ölüm hadisələri onu göstərir ki, həmin hadisələrin qurbanları yaşamaq hüququndan məhrum edilmişlər. Başqasının ölümünə səbəb olmaq və onu yaşamaq hüququndan məhrum etmək təbii ki, cinayət hesab olunur və bu terrordan əziyyət çəkən dövlətlərin cinayət qanunvericiliyi və beynəlxalq hüquq normaları və konvensiyalarla ilə tənzimlənir. Belə ki, terrorçuluq hərəkətlərinin törədilməsi zamanı qəsdən adam (yaxud bir neçə adam) öldürüldükdə, bu, terrorçuluq cinayətinin tərkibi ilə əhatə olunmur və əlavə olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.11-ci maddəsi üzrə cinayətlərin məcmusu qaydasında tövsif edilir.

Yaşamaq hüququnun əsas məqsədi fərdləri qanunsuz həyatdan məhrum edilməkdən qorumaqdır.Yaşamaq hüququ heç bir ayrı-seçkilik qoyulmadan hər kəsin malik olduğu hüquqdur. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 2-ci maddəsinin 1-ci bəndinin mətni pozitiv, neqativ və prosedur öhdəliklərini ehtiva edir. Neqativ öhdəlik tələb edir ki, dövlətlər insanı həyatdan qanunsuz məhrum etməkdən çəkinsinlər. Pozitiv öhdəliklər belə bir tələblə bağlıdır ki, dövlətlər yurisdiksiyaları altında olan şəxslərin həyatlarını qorumaq üçün pozitiv tədbirlər görsünlər. Prosedur öhdəliyi (onu həm də pozitiv öhdəlik kimi təsvir etmək olar) istər dövlət nümayəndəsi, istərsə də özəl şəxs tərəfindən güc tətbiqi nəticəsində insanın öldüyü bütün hallarda səmərəli rəsmi araşdırma həyata keçirmək vəzifəsindən ibarətdir [5].

Bu tələblərə cavab vermək üçün dövlət orqanları digər insanları qanunsuz olaraq öldürmüş şəxsləri cəzalandırmaq üçün müvafiq tədbirlər görməlidirlər. Yaşamaq hüququ qanunsuz adam öldürmə hərəkətlərinin cəzasız qalması ilə bir araya sığmır. Bunların həyata keçirilməsi üçün dövlət təkcə şikayət etmək

imkanının və araşdırma prosedurunun çatımlı olmasını yox, həm də səmərəli cinayət mühakimə icraatı sisteminin mövcudluğunu təmin etməlidir.

Beynəlxalq təcrübəyə istinad edərək, qeyd etmək olar ki, antiterror əməliyyatları zamanı terrorçuların öldürülməsinə misal olaraq, Türkiyə Silahlı Qüvvələri və Azad Suriya Ordusunun birgə təşkil etdiyi "Zeytun Budağı" əməliyyatı çərçivəsində 1715 terrorçu zərərsizləşdirilməklə, PYD/YPG və İŞİD-ə mənsub ümumilikdə 74 terrorçu yaşamaq hüququndan məhrum edilmişdir [6].

İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 2-ci maddəsinin 2-ci bəndində sadalanan hallar yaşamaq hüququndan məhrumetmə o halda cinayət məsuliyyəti yaratmır ki, istənilən şəxs hüquqa zidd zorakılıqdan qorunması üçün, qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün, qanuna müvafiq olaraq çevriliş və ya qiyamın yatırılması zamanı güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması hesab edilmir.

Azərbaycan Respublikasının Konstitusiyasının 27-ci maddəsinin 4-cü bəndindəqeyd olunduğu kimi qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir. Konstitusiya həmin hallar zamanı insanlara silahın tətbiq edilməsinin cinayət hesab olunmayacağını müəyyən edir [4].

Zəruri müdafiə, son zərurət, cinayətkarın tutulması cinayət-hüquqi kateqoriyasında aparılan antiterror əməliyyatları çərçivəsində tədqiqat obyekti qismində öyrənilməlidir ki, bu da bizim növbəti məqalənin predmeti olacaqdır.

Nəzərinizə çatdırmaq istəyirik ki, qüvvədə olan Cinayət Məcəlləsinin 36-cı maddəsində zəruri müdafiəyə anlayış verilmişdir. Həmin maddədə göstərilən anlayışa əsasən zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya

başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır.

Göstərilən anlayışa əsasən şəxs öz yaşamaq hüququnu qorumaq istəyərkən yəni onun həyat və sağlamlığına qəsd etmək istəyən şəxsə qarşı zəruri müdafiədən istifadə etmişsə və zəruri müdafiə həddini aşmamışsa, törədilmiş əməl cinayət hesab olunmur. Zəruri müdafiə ictimai təhlükəli qəsddən mühafizə olunmaq üçün qanuni olaraq hücum edənə zərər vurmaq başa düşülür. Zəruri müdafiədə qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsdin qarşısı alınır [7].

Son zərurət isə şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün qanunvericiliklə qorunan obyektlərə zərər vurmaq yolu ilə müəyyən hərəkət etməsi və həmin vəziyyətdə bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün olmaması anlaşılır. Yəni, hər hansı şəxs qeyd olunan mənafeləri bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün qanunla qorunan obyektlərə zərər vura bilər, lakin belə zərər də mütləq qarşısı alınan zərərdən az olmalıdır. Qeyd edilməlidir ki, son zərurət vəziyyətini doğuran təhlükə mövcud olmalı, həqiqi və real olmalıdır. Belə təhlükələr müxtəlif ola bilər. Məsələn, təbii fəlakətlər, ictimai fəlakətlər (yanğın, partlayış) [12].

Beləliklə, ehtimal olunan terrorçulara, terror qruplarının üzvlərinə onları zərərsizləşdirmək məqsədilə öldürmək üçün atəş açılmasına dövlətin qanununda və praktikasında icazə verilir.

Milli qanunvericilik sisteminə diqqət yetirsək görərik ki, hansı hallarda silahın tətbiqinə yəni onun istifadə olunmasına icazə verilir. Fiziki qüvvənin, döyüş texnikasının və silahın tətbiq edilməsi halları Azərbaycan Respublikasının bir sıra qanunları ilə nizamlanır. “Polis haqqında” qanunun 17-ci maddəsinin 8-ci bəndindəvə 26-27-ci maddələrində və Azərbaycan Respublikasının “Dövlət

Sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununun 36-cı maddəsində nəzərdə tutulmuşdur.

"Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının 1 mart 1998-ci il tarixli Qanunun 2-ci maddəsinin 8-ci bəndinə görə, odlu silah dedikdə, barıtın və ya digər şan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silah başa düşülür. Odlu silaha tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar və s. aid edilir.Odlu silahdan istifadə edilməsi dedikdə, insanın sağlamlığına zərər vurmaq məqsədi ilə belə silahın faktiki olaraq tətbiq edilməsi başa düşülür.

"Polis haqqında" Azərbaycan Respublikasının qanunun 17-ci maddəsinin 8-ci bəndinə əsasən qanunla müəyyənləşdirilmiş qaydada və hallarda fiziki qüvvə işlətmək, habelə xüsusi vasitələr və odlu silah saxlamaq, gəzdirmək və onları tətbiq edilməsinə icazə verilir.

Həmin qanunun 26-cı maddəsinin 4-cü bəndində polis əməkdaşı tərəfindən onun qanuni tələblərini icra etməyən hər hansı şəxsə qarşı fiziki qüvvə tətbiq edilməsi hallarına insan həyatına qəsd olunduqda və məcburi dayandırma vasitələrinin tətbiqi nəticə vermədikdə, şəxs yaxalanarkən silahlı müqavimət göstərdikdə, insan həyatına real təhlükə yaradan cinayətin qarşısı alındıqda, terrorçuluq və ya dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi ilə bağlı cinayətlərin qarşısı alındıqda, odlu silahın digər şəxs tərəfindən ələ keçirilməsinin qarşısı alınması zamanı tətbiq edilir.

"Polis haqqında" Azərbaycan Respublikasının qanunun 26-cı maddəsinin 6-cı bəndinin tələblərinə uyğun olaraq fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır. Fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi zamanı hər hansı şəxsin həyatdan məhrum edilməsi yaşamaq hüququnun pozulması kimi qiymətləndirilə bilməz kimi göstərilmişdir [8].

“Dövlət Sərhədi haqqında” Azərbaycan Respublikasının qanunun 36-cı maddəsinə əsasən müəyyən olunmuşdur ki, Azərbaycan Respublikası dövlət sərhədinin qorunması zamanı silahın və döyüş texnikasının tətbiqi Sərhəd qarovulu və hava hücumundan müdafiə qoşunları Azərbaycan Respublikasının dövlət sərhədini qoruyarkən silah və döyüş texnikasını tətbiq etmək hüququna malikdirlər. Zəruri hallarda Azərbaycan Respublikası dövlət sərhədinin qorunması zamanı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin başqa növlərinin silah və döyüş texnikası tətbiq edilə bilər [9].

“Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunun 15-ci maddəsinə əsasən terror əleyhinə aparılan əməliyyat zamanı terrorçuların həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulmasına yol verilir. Terrorçuluğa qarşı mübarizədə iştirak edən şəxs terror əleyhinə aparılan əməliyyat zamanı vurulmuş bu cür ziyana görə məsuliyyət daşımır [10].

Qeyd etmək istəyirik ki, antiterror əməliyyatları dövlət orqanları tərəfindən planlaşdırılmalı və nəzarət olunmalıdır ki, “ölümlə nəticələnən güc tətbiqinə əl atmaq ehtimalı mümkün qədər minimuma endirilsin”.

Onu da bildirmək istəyirik ki, terror aktları nəticəsində dəyən ziyanın ödənilməsi və zərər çəkmiş şəxslərin sosial reabilitasiyası məsələsi və terrorçuluğa qarşı mübarizə aparan şəxslərin hüquqi və sosial müdafiəsi “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunun 13-14-cü maddələrdə göstərilmişdir.

Beləliklə, terror aktları nəticəsində fiziki və hüquqi şəxslərin əmlakına dəyən ziyan dövlət büdcəsinin vəsaiti hesabına tam həcmdə ödənilir, daha sonra bu məbləğ təqsirli şəxslərdən tutulur. Terror aktları nəticəsində zərər çəkmiş şəxslərin sosial reabilitasiyası, həmin şəxslərə göstərilən hüquqi, psixoloji, tibbi, professional yardımları, onların işlə və mənzillə təmin olunmasını nəzərdə tutur.

Antiterror əməliyyat iştirakçılarının hüquqi və sosial müdafiəsi isə dövlətin müdafiəsi altındadır. Həmin müdafiə tədbirləri aşağıdakı şəxslər barəsində tətbiq

edilir: müvafiq icra hakimiyyəti orqanının terrorçuluğa qarşı mübarizədə bilavasitə iştirak edən əməkdaşlarına, dövlət orqanlarına daimi və ya müvəqqəti əsaslarla terror fəaliyyətinin qarşısının alınmasında, aşkar edilməsində və bu fəaliyyət nəticəsində dəyə biləcək ziyanın minimuma endirilməsində kömək edən şəxslər və onların yaxınlarının sağlamlığına və ya əmlakına ziyan dəydiyi hallarda, həmin şəxslərin yaxın qohumları nəzərdə tutulur.Belə ki, əməliyyatlar zamanı həlak olmuş şəxsin ailəsinə, habelə öhdəsində olanlara dövlət büdcəsinin vəsaiti hesabına orta aylıq əmək haqqı məbləğinin yüz misli miqdarında birdəfəlik müavinət ödənilir, daha sonra bu məbləğ təqsirli şəxslərdən tutulur.

Terrorçuluğa qarşı mübarizədə iştirak edən şəxs terror əleyhinə aparılan əməliyyatlar zamanı xidmətini davam etdirilməsinə imkan verməyən dərəcədə xəsarət (yaralanma, travma, kontuziya) aldıqda, ona dövlət büdcəsinin vəsaiti hesabına orta əmək haqqı məbləğinin doxsan misli miqdarında birdəfəlik müavinət ödənilir, daha sonra bu məbləğ təqsirli şəxslərdən tutulur [10].

Sonda belə nəticəyə gəlmək olar ki, terrorçuluq bəşəriyyəti məhv edən sosial-siyasi bəladır. Gündən-günə artan terror hadisələrinin baş verməsi nəticəsində günahsız insanlar yaşamaq hüququndan məhrum edilir.Bu kimi halların qarşısını almaq və layiqincə mübarizə aparmaqüçün qanunvericilik sistemi gücləndirilməli və hüquq-mühafizə orqanlarının fəaliyyətində terorçularla mübarizənin aparılması sahəsi daha da təkmilləşdirilməli və terrorçuluğa qarşı mübarizədə beynəlxalq praktikadan istifadə olunmalıdır.

Göstərilənləri nəzərə alaraq, aşağıdakı elmi əsaslı tövsiyələri irəli sürmək olar:

1. Antiterror əməliyyatlarının əməkdaşları terrorçuların davranışını foto, video və.s vasitələrlə qeydə almalıdırlar. Belə ki, onların hüquq-mühafizə orqanlarına müqavimət göstərməsi: silah tətbiq edilməsivə adamların girov götürülməsi faktı ilə bağlı aparılan ibtidai araşdırmada sübut mənbəyi kimi istifadə edilməlidir.

2. Terror qurbanlarının və onların ailələrinin tələbatlarını dəstəkləyən və həyatlarının normallaşdırılmasına kömək edəcək milli könüllülüyə əsaslanan sistemlərin yaradılmasını və bu cür milli sistemlərin inkişaf etdirilməsi sahəsində tədbirlər görülməlidir.

3. Terrorçuluğa qarşı mübarizənin təşkilində daha dərin, əlaqəli və inteqrasiya olunmuş mənafelərə görətəlimat hazırlanmalıdır. Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, habelə dövlət məmurları, bələdiyyə işçiləri, terrorçuluq və ekstremizmə qarşı mübarizə aparan müəssisə, təşkilat və qurumlarının əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulmalıdır.

## Biblioqrafiya

1. Ələkbər Nağıyev, Beynəlxalq Terrorçuluq, monoqrafiya, Bakı-2011

2. Şəmsəddin Əliyev, «Polisə Dəstək» İB-nin sədri, 15 İyul 2016-cı il

3. Azərbaycan SSR-nin Cinayət Məcəlləsi 8 dekabr 1960-cı il, 59-cu maddə

4. Ziyafət Əsgərov, Konstitusiya hüququ, dərslik-2005.

5. http://academy-justice.gov.az/madde2/e1.pdf

6. http://azxeber.com/az/afrinde-mehv-edilen-terrorcularin-sayi-1715-e-catib

7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 27 dekabr 2013-cü il tarixli, 878-IVQD nömrəli qanun — «Respublika» qəzeti (4 fevral 2014-cü il, № 23).

8. AR "Polis haqqında" qanun, Bakı şəhəri, 28 oktyabr 1999-cu il № 727-IQ, maddə 26

9. AR "Dövlət Sərhədi" haqqında qanun, Bakı şəhəri, 4 dekabr 2001-ci il № 223-IIQ, 36-cı maddə

10. AR "Terrorçuluğa qarşı mübarizə" haqqında qanun, Bakı şəhəri, 18 iyun 1999-cu il № 687 IQ, 15-ci maddəsi

11. Əliyev İ. BM T Təhlükəsizlik Şurasının 04 may 2012-ci il tarixli yüksək səviyyəli iclasında çıxış, “Azərbaycan” qəz., 2012, 06 may, №99.

12. https://news.milli.az/society/174519.html